| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI* |
| Qəbul edildiyi tarix | *24.01.2014* |
| Qeydiyyat nömrəsi | *Q-5* |
| Adı | *Sığortaçının tələb olunan kapitalının minimum məbləğinin müəyyən edilməsi haqqında* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *06.02.2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *080.010.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201401240005* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *05.02.2014* |

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 806-IVQD nömrəli Qanununun tətbiqi və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 mart tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 dekabr tarixli 49 nömrəli Fərmanının 4.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**QƏ**RARA ALIR:

1. Sığortaçıların tələb olunan kapitalının minimum məbləği aşağıdakı kimi müəyyən edilsin:

1.1. Qeyri-həyat sığortası fəaliyyəti üzrə:

1.1.1. fəaliyyətdə olan sığortaçılar üçün - 5 000 000 (beş milyon) manat;

1.1.2. yeni təsis edilən sığortaçılar üçün - 5 000 000 (beş milyon) manat;

1.2. Həyat sığortası fəaliyyəti üzrə:

1.2.1. fəaliyyətdə olan sığortaçılar üçün:

1.2.1.1. 2015-ci ilin 01 yanvar tarixinədək - 5 000 000 (beş milyon) manat;

1.2.1.2. 2015-ci ilin 01 yanvar tarixindən etibarən - 6 500 000 (altı milyon beş yüz min) manat;

1.2.1.3. 2016-cı ilin 01 yanvar tarixindən etibarən - 8 000 000 (səkkiz milyon) manat;

1.2.1.4. 2017-ci ilin 01 yanvar tarixindən etibarən - 10 000 000 (on milyon) manat;

1.2.2. yeni təsis edilən sığortaçılar üçün - 10 000 000 (on milyon) manat.

1.3. Təkrarsığorta fəaliyyəti üzrə:

1.3.1. müstəsna olaraq təkrarsığorta fəaliyyəti üzrə:

1.3.1.1. fəaliyyətdə olan təkrarsığortaçılar üçün - 20 000 000 (iyirmi milyon) manat;

1.3.1.2. yeni təsis edilən təkrarsığortaçılar üçün - 20 000 000 (iyirmi milyon) manat;

1.3.2. sığortaçının təkrarsığorta fəaliyyəti üzrə:

1.3.2.1. 2014-cü ilin 01 mart tarixindən etibarən - 2 500 000 (iki milyon beş yüz min) manat;

1.3.2.2. 2015-ci ilin 01 yanvar tarixindən etibarən -5 000 000 (beş milyon) manat.

2. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının “Sığortaçıların və təkrarsığortaçıların tələb olunan kapitalının müəyyən edilməsi haqqında” 2008-ci 31 iyul tarixli Q-09 nömrəli və “Sığortaçıların və təkrarsığortaçıların tələb olunan kapitalının müəyyən edilməsi haqqında Kollegiya qərarına dəyişiklik edilməsi barədə” 2010-cu il 29 noyabr tarixli Q-13 nömrəli Qərarları ləğv edilsin.

3. Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinə və Dövlət Sığorta Nəzarəti Xidmətinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

Kollegiyanın sədri,
Azərbaycan Respublikasının
maliyyə naziri — Samir Şərifov